Azərbaycan.- 2021.- 25 aprel. S. 7.

# Dünyanın ən qədim xanədanı

**Qədim sivilizasiyanın beşiyi olan Çin bəşəriyyətin ilk əcdadlarının yaşadığı ərazilərdəndir. 1923-cü ildə Pekin yaxınlığında tapılan "Pekin insanı"nın (Sinanthropus pekinensis) qalıqlarının tarixi 400-300 min il əvvələ gedib çıxır. "Müasir insan"ın (Homo sapiens) ilkin forması Çində təxminən 40 min əvvəl yaranıb.**



Çin dövlətinin adının yaranma tarixi Sin sülaləsinin adı ilə bağlıdır. Bu sülalə Çindəki bir neçə dövlət arasında gedən mübarizədə qalib gəlib. Sin sülaləsi "Vuruşan padşahlıqlar" dövründə (e.ə. IV-III əsrlərdə) hakimiyyətdə olub.

E.ə. 221-ci ildə Sin Şi Xuandi imperator titulunu qəbul edərək özünü Çinin birinci padşahı adlandırıb. Onun dövründə Çin ilk dəfə vahid dövlətdə birləşdirilib. Çin imperatorluğunun əsasını qoyan Sin Şi Xuandi onu ən güclü dövlət kimi formalaşdıran imperator olub.

Sin Şi Xuandinin dövründə Çin 36 vilayətə bölünüb, vahid çəki, ölçü, pul və yazı sistemi yaradılıb və vahid qanunlar qəbul olunub. Sin sülaləsinin hakimiyyəti 206-cı ildə başa çatıb.

Qeyd edək ki, Çində ilk sülalənin Sya olduğunu (e.ə. 2205-ci - e.ə. 1766-cı illər) desələr də, əsaslı arxeoloji məlumatların olmaması bunu hələ tarixi reallıq kimi qəbul etməyə imkan vermir. XX əsrin 20-ci illərinin sonuna qədər Şan sülaləsinə də əfsanə kimi baxılırdı. Lakin Xenan əyalətində indiki Anyan şəhəri yaxınlığında tapıntılar bu sülalənin mövcudluğunu sübut etdi. Tapılan şəhərin xarabalıqları Pan-qen hökmdarının hakimiyyəti zamanı (e.ə. 1401-ci - e.ə. 1374-cü illər) Xuanxedən cənuba uzanan və tez-tez daşqınlara məruz qalan rayonlardan köçəndən sonra əsası qoyulan şanların paytaxtı ilə uyğun gəlirdi.

VII əsrin əvvəllərində Çində hakimiyyət 289 il hökmranlıq etmiş Tan sülaləsinin (618-907-ci illər) əlinə keçdi. Tan sülaləsinin işğalçılıq siyasəti nəticəsində Koreya və Vyetnam Çinə tabe edilmişdi.